# Azərbaycanın 44 günlük zəfərinin başlıca yekunları

**27 sentyabr zəfər yürüşünün başlandığı tarixdir. Bu tarix Azərbaycan Ordusunun qüdrətini tarixləşdirən qələbənin ilkidir...**

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Tarixi torpaqlarımızı işğaldan azad etmək uğrunda apardığımız bu əməliyyat tarixə İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi kimi həkk olundu.Vətən müharibəsi xalqın müharibəsi, ruhun müharibəsidir. Azərbaycan xalqı ötən 30 illik dövr ərzində əzəli torpaqlarımızın işğalı ilə barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm və dözüm göstərdi.Xalqımızın ədalətli mübarizəsinin - Vətən müharibəsinin 44 günün hər günü şanlı tarixdir.Bu tarixi zəfərimizə qədər ordumuz dəfələrlə Ermənistan ordusuna ağır zərbələr vurmuşdu. 2016-cı ilin Aprel döyüşləri tarixi Qələbəmizin başlanğıcı oldu. O döyüşlərdə düşmən itkilər verərək, silah-sursatını atıb qaçmağa məcbur oldu.Həmin döyüşlərdə işğal altında qalmış torpaqlarımızın 2 min hektarı, o cümlədən bir sıra strateji yüksəkliklər azad edildi. 2018-ci il may ayı ərzində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Məğlubiyyətlə barışmayan Ermənistan ordusu 2020-ci il iyul ayında yenidən təxribatlara əl ataraq, Tovuz rayonu istiqamətində atəşkəsi pozdu. Bu dəfə də əks tərəf layiqli cavablarını aldılar. Tovuz döyüşləri də Vətən müharibəsinə təkan verən əsas hadisə oldu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa hər müraciətində haqqa, ədalətə söykənərək işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini, üçrəngli bayrağımızın bu ərazilərimizdə dalğalanacağını böyük inamla, əminliklə bildirirdi.

2020-ci il sentyabrın 27-si əks-hücumun ilk həmləsindən rəşadətli ordumuz tərəfindən kəndlərimizin azad olunması bu inamı bir əminliyə çevirdi. Müzəffər Azərbaycan Ordusu hər gün irəli gedərək yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edirdi. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir. Şanlı ordumuz oktyabrın 3-ü Suqovuşanı, oktyabrın 4-ü Cəbrayılı, oktyabrın 9-u Hadrutu, oktyabrın 17-si Füzulini, oktyabrın 20-si Zəngilanı, oktyabrın 25-i Qubadlını və nəhayət, noyabrın 8-i Şuşa şəhərini işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i tarixlmizə qızıl hərflərlə həkk olundu. Başımızın tacı Şuşa şəhəri azad olundu. Noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini Azərbaycan xalqına, bütün Dünya azərbaycanlılarına elan etdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa döyüşləri barədə bunları dedi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın azad edilməsi çox böyük peşəkarlıq, cəsarət tələbedən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir". İkinci Qarabağ müharibəsində istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur.




Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsinin ən uğurlu əməliyyatı olmaqla yanaşı, həm də dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olmuşdur.Vətənin müdafiəsini özünə müqəddəs vəzifə bilən mərd oğullarımız düşməni döyüş meydanında darmadağın etdi. Bununla da Azərbaycan əsgəri düşmənin 30 il ərzində yaratdığı "məğlubedilməzlik mifi"ni məhv etdi.44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı.Tarixi ədalət bərpa olundu. Bundan sonra Ermənistan öz məğlubiyyəti ilə barışıb,noyabrın 10-dakapitulyasiya aktını imzalamağa məcbur oldu.2020-ci ilin 10 noyabr bəyanatına əsasən, noyabrın 20-si Ağdam, noyabrın 25-i Kəlbəcər və dekabrın1-də isə Laçın Azərbaycana qaytarıldı.Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrildi. Vətən müharibəsi xalqımızın məğlubedilməzliyini bütün dünyaya göstərdi. Sonunda haqq, ədalət qalib gəldi. 30 ilin nisgilinə, acısına, torpaq həsrətinə 44 günlük İkinci Qarabağ müharibəsi son qoyaraqzəfər ilə dünyaya səs saldı. Azərbaycan xalqı ən məğrur, yenilməz xalq kimi, ordumuz isə dünyanın ən güclü, peşəkar ordusu kimi tarixə yazıldı. Həmin gün Qarabağ Azərbaycana qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə, digər şəhər və rayonlarımızda soyqırımları, terror zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu günü, qələbəni, zəfəri bizlərə Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevvə güclü, rəşadətli ordumuz yaşatdı. 30 ildən sonra Ali Baş Komandan və rəşadətli ordumuz sübuta yetirdi ki, Qarabağ Azərbaycandır! Bundan sonra hər zaman 44 günlük qəhrəmanlıq savaşımız qürur mənbəyimiz olaraq qalacaq! Şəhidlərimiz bu möhtəşəm Qələbə tarixini öz qanları ilə yazdılar.Zəfər günü yumruq kimi düyünlənən qədim qalalarımız da məğrurcasına 30 il ərzində əyilmiş qamətini dikəltdi. Rəşadətli Azərbaycan Ordusu haqq savaşı ilə ölkəmizin Zəfər salnaməsini yazdı.Bu Zəfərin davamı olan Şuşa Bəyannaməsi də Azərbaycan Ordusunun tarixidir. Şuşa Bəyannaməsi Vətən müharibəsi tarixində, Azərbaycan Ordusunun tarixində həmişə qürurla xatırlanacaq.

Dekabrın 10-da möhtəşəm Qələbəyə həsr olunmuş "Zəfər Paradı" təntənə ilə keçirildi. Bu Parad təkcə ölkəmizdə deyil, dünyada da canlı olaraq izlənildi. Rəşadətli ordumuzun düşməndən qalan hərbi qənimətlərinin bir qismi bu paradda nümayiş etdirildi. Paradda Vətən müharibəsinin 44 gün müddətinə mənən yanımızda olan qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da geniş məzmunlu, qardaşlıq, birlik bağlarımıza əsaslanan çıxışında vurğuladı ki, Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman ulu öndər Heydər Əliyevin "İki dövlət, bir millət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir". Bu paradda ölkələrimiz arasındakı qardaşlığın bariz nümunəsi kimi, Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərləri iştirak etdilər. Bu müharibə bir daha dünya azərbaycanlılarının birliyinin təsdiqi oldu. Vətən müharibəsi həm işğalı sonlandırdı, həm də Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində demişdir: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Biz bu Qələbəyə görə onlara borcluyuq". Həmçinin Müzəffər Ali Baş Komandan xalqa müraciətində onu da qeyd edib ki, "Bizim işimiz haqq işidir, biz qalib gələcəyik" kəlamı hər bir vətəndaşımızda qürur, fərəh hissi doğurmaqla ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı.

Ümumilli liderimiz Heydər Əliyev Azərbaycan gənclərinə xitabən belə vəsiyyət etmişdir: "Sizin ən ümdə vəzifəniz Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir. Azərbaycanın hər bir vətəndaşı öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır."

Ulu öndərin bu vəsiyyəti Azərbaycan Respublikasının Prezidenti, müzəfffər Ali Baş Komandan İlham Əliyev və əsl peşəkarlıq, məharət, yenilməz əzm nümayiş etdirərək şanlı qələbə qazanan rəşadətli Azərbaycan Ordusu tərəfindən yerinə yetirildi.

Vətənə təmənnasız xidmət etmək, onun yolunda hər cür çətinliklərə dözmək xalqımızın milli düşüncə və əxlaq tərzinə çevrilmişdir. Bu şanlı ənənələri ləyaqətlə davam etdirən oğulların şərəfli ömür yolu ordumuzun şəxsi heyəti üçün örnək olmalıdır.

Nəticə olaraq qeyd etmək lazımdır ki,Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünün bərpa edilməsi uğrunda aparılacaq ədalətli müharibədə qalib gəlmək üçün ölümə belə hazır olan hər bir döyüşçünün qəlbində və şüurunda Vətənə, Konstitusiyaya və hərbi anda sədaqətlilik ideyası yaşamalıdır.

Qoy bundan sonra hər gün Azərbaycana, millətimizə uğur, qələbə sevinc gətirsin!

***Gülnar BƏŞİROVA,***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi***